# TRİNOLA® 1

## KLİNKERİN ÜYÜDÜLMƏSİNİ İNTENSİVLƏŞDİRƏN VƏ HİDROFOBLUQ (suqovuculuq) YARADAN SEMENT QATQISI




### Məhsul haqqında
Hər növ sement istehsalında istifadə edilən, istehsal məhsuldarlığını artıran və yüksək keyfiyyətli sement istehsalına imkan verən, klinkerin üyüdülməsini intensivləşdirən kimyəvi sement qatqısıdır.

### İstifadə sahələri
Bu məhsuldan:
• adi potlandsement istehsalında;
• müxtəlif çeşidli (plastikləşdirilmiş, hidrofob, turşuyadavamlı, əlvan, tezbərkiyən və s.) portlandsement istehsalında;
• hidravlik yapışdırıcı maddələrin (hidravlik əhəng və romansement) istehsalında istifadə olunur.

### Üstünlükləri
• istehsal məhsuldarlığını artırır;
• üyütmə xərclərini azaldaraq enerji istehlakına qənaət edir;
• hava seperatorunun məhsuldarlığını artırır;
• sementin ilk və son müqavimətlərini 15-20% artırır;
• sementin su tələbatını 2%-dək azaldır.

### İstifadə qaydaları
***Tətbiqi.*** Trinola 1 məhsulunu dəqiqləşdirilmiş (elektron) tərəzi ilə çəkdikdən sonra istifadə edin. Tövsiyə olunan miqdarda qatqını klinker dəyirmanının I və ya II bölümündə sistemə ya da birbaşa klinkeri sistemə aparan transportyorun üzərinə damcılatmaqla istifadə edin.

### Texniki göstəricilər

| | |
|---|---|
| Rəngi | qəhvəyi |
| Sıxlığı | 1.14 kq/l |
| Xlorun miqdarı | 0.1 % |
| Qablaşdırma | 10 kq-lıq bidon, 200 kq-lıq çəllək, 1000 kq-lıq fıçı, xüsusi çənləri olan maşınlar |

### Sərfiyyat
1 ton sement istehsalı üçün 0,4-2,0 kq istifadə oluna bilər. İlkin laboratoriya tədqiqatlarına əsasən sərfiyyat dəyişə bilər.

### Saxlama müddəti və qaydası
$+5^0C$ - $+30^0C$ temperaturda açılmamış qablarda quru şəraitdə 12 ay saxlanıla bilər.

### Xəbərdarlıqlar
• məhsuldan istifadə zamanı işin və işçinin təhlükəsizliyi qaydalarına riayət olunmaqla, müvafiq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edin;
• dəriyə və gözə düşərsə dərhal su ilə yuyun;
• məhsulun udulma halı baş verərsə, dərhal həkimə müraciət edin.

### Zəmanət və texniki dəstək
• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• “Mətanət A” şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə “Mətanət A” şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün “Mətanət A” şirkətinə müraciət edin!